# Ermənistan ekoloji terroruna görə cəzalandırılmalıdır

## Bunu BMT-nin Bioloji Müxtəliflik haqqında və digər sənədlərindən irəli gələn öhdəliklərin pozulması tələb edir

**Ermənistan 1988-ci ilin fevralından xarici havadarlarına, erməni terror təşkilatlarına arxalanaraq Azərbaycana qarşı işğalçılıq müharibəsinə başladı. Düşmənin əsas məqsədi ölkəmizin ərazilərini ələ keçirmək və xəyallarında dolaşan "böyük Ermənistan" yaratmaq idi. Bu çirkin məqsədinə çatmaq üçün erməni qəsbkarları bütün imkan və vasitələrindən istifadə edirdi. Qarabağda yuva qurmuş erməni terror təşkilatlarının üzvləri mövqelərimizə hücum edir, torpaqlarımızı, şəhər və kəndlərimizi ələ keçirməyə çalışırdılar. Qəsbkarlar şəhər və kəndlərimizi dağıdır, soydaşlarımıza qarşı misli görünməmiş qırğınlar, soyqırımları törədirdilər. Təəssüflər olsun ki, düşmən çirkin məqsədinə nail oldu. Ermənistan silahlı qüvvələri ərazilərimizi 30 ilə yaxın işğal altında saxladı.**



Bu illər ərzində Ermənistan xalqımıza qarşı soyqırımları törətməklə, şəhər və kəndlərimizi yandırıb dağıtmaqla kifayətlənmədi. Düşmən işğal dövründə ölkəmizin təbiətini də, bitki və heyvanlar aləmini də məhv etdi. Ermənistanın işğal dövründə torpaqlarımıza, Azərbaycan təbiətinə vurduğu zərbə bəşəriyyətə və insanlığa qarşı yönələn terror siyasəti kimi qiymətləndirilməlidir. Bu illər ərzində Ermənistanın apardığı ekoloji terror siyasəti nəticəsində su mənbələri, torpaqlarımız bioloji, kimyəvi və fiziki çirklənməyə məruz qaldı.

Ermənistan dövlətinin birbaşa təşkilatçılığı ilə ekoloji təhlükəsizliyə təhlükə və təhdidlər yaradan qanunsuz fəaliyyətlər zaman-zaman qəbul olunmuş bir çox beynəlxalq konvensiyanın, o cümlədən Ermənistanın da üzv olduğu BMT-nin Bioloji Müxtəliflik haqqında, səhralaşmaya qarşı mübarizə haqqında və digər beynəlxalq razılaşmalardan irəli gələn öhdəliklərin kobudcasına pozulması deməkdir.

İşğalın davam etdiyi çağlarda - 2016-cı ildə Avropa Şurası Parlament Assambleyası Azərbaycanın sərhədyanı rayonlarının sakinlərinin məqsədyönlü şəkildə suvarma suyundan məhrum edilməsi ilə bağlı 2085 nömrəli qətnamə qəbul etmişdi. Sənəddə Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal çıxarılması, müstəqil mühəndis və hidroloqlar tərəfindən yerində təhqiqat işlərinin aparılmasının təmin edilməsi tələb olunurdu. Lakin işğalçılıq siyasəti yürüdən Ermənistan BMT-nin qətnamələrinə əməl etmədiyi kimi, Avropa Şurasının da bu sənədini vecinə almadı. Məhz buna görə də Azərbaycanın Bərdə, Tərtər, Goranboy, Beyləqan, Biləsuvar və İmişli rayonlarının fermerləri İkinci Qarabağ müharibəsinə qədər işğal altında olan ərazilərdə formalaşan su ehtiyatlarından istifadə edə bilmədilər. Bunun da nəticəsində susuz qalmış torpaqlar deqradasiyaya uğradı, təbiətə ağır zərbə vuruldu.

İşğal olunmuş ərazilərdəki mineral-xammal ehtiyatlarının qanunsuz mənimsənilməsi Ermənistanın dövlət siyasətinə çevrilmişdir. Bəsitçay və Qaragöl dövlət təbiət qoruqları, Arazboyu, Laçın, Qubadlı və Daşaltı dövlət təbiət yasaqlıqlarının ərazilərində olan qiymətli ağac və digər nadir biomüxtəliflik nümunələri ermənilər tərəfindən talan edilmişdi. Ekologiyaya qənim kəsilmiş qəsbkarlar işğal etdikləri ərazilərdə meşələri vəhşicəsinə qırıb yandırmışdılar. Araz çayı və qollarının çirkləndirilməsi nəticəsində qiymətli flora və fauna növləri məhv edilmişdi. Ermənilər işğal olunmuş ərazilərdə qaraçöhrə, ayıfındığı, Araz palıdı, yalanqoz, Şərq çinarı, adi nar, meşə üzümü, pirkal, şümşəd, Eldar şamı, adi xurma, söyüdyarpaq armud və sairə növ ağacları məhv etməklə dünya florasının xəzinəsinə ağır zərbə vurmuşdular. İşğal olunmuş ərazilərdə "Azərbaycan Respublikasının Qırmızı Kitabı"na daxil edilmiş məməlilərin 4, quşların 8, balıqların 1, amfibiya və reptililərin 3, həşəratların 8, bitkilərin isə 27 növü qorunurdu. Təəssüflər olsun ki, ermənilərin terror siyasəti nəticəsində bu heyvanlar, quşlar və həşəratlar da məhv edilmişdir.

İşğal dövründə Cəbrayıl, Zəngilan, Qubadlı və başqa ərazilərdə yaşı iki min ildən artıq olan təbiət abidələri sayılan çinarlar kəsilib aparılmışdır. Kəlbəcər meşələrindəki endemik növlərdən olan qırmızı palıd meşələri tamamilə qırılaraq Yer üzündən silinmişdir. Erməni iş adamları qırmızı palıddan çox bahalı mebel materialı kimi istifadə etmişdilər. Avropa mətbuatının yazdığına görə, Kəlbəcər meşələrində kütləvi qırılan qırmızı palıd oduncağından düzəldilən mebel milyonlarla dollara satılmışdır.

Qazax rayonu istiqamətində, Murovdağ silsiləsi boyu, Ağdərə istiqamətində Talış, Gülüstan, Baranbart meşə ərazisində 100 hektarlarla sahədə fıstıq, saqqız, göyüş, şam, palıd və digər çoxillik ağaclar kəsilərək Ermənistana daşınıb. Bu ərazilərdəki döyüş mövqelərində hərbi hissələrin və hərbi texnikanın yerləşdirilməsi, mühəndis-istehkam qurğularının inşası, şəxsi heyətin və texnikanın manevr etməsi məqsədilə əlaqələndirici yolların çəkilməsi, torpaq qazıntı işlərinin aparılması zamanı ağac və kolların qırılması, otlaq sahələrinin yandırılması nəticəsində flora və faunaya ciddi ziyan dəyib. Həmin ərazilərdə düşmənin gördüyü işlər Azərbaycan təbiətinin məhvinə yönələn ekoloji terror aktıdır.

Şanlı Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi altında 44 günlük Vətən müharibəsində Ermənistan silahlı qüvvələrini diz çökdürərək torpaqlarımızı azad etdi. Qəsbkarlar işğaldan azad olunmuş ərazilərdə xarabalıqlar və ekoloji fəlakətlər qoymuşdular. Düşmən 30 ilə yaxın işğal altında saxladığı əraziləri həm Azərbaycandan, həm də beynəlxalq birliyin nəzarətindən kənarda saxlamış, burada istədikləri qanunsuzluqları törətmişdi. İşğalçı ölkə beynəlxalq konvensiyalara zidd fəaliyyət göstərərək təbii sərvətlərimizi talan etmiş, su ehtiyatlarımızı çirkləndirmiş, flora və faunanı məhv etmiş, əraziləri xarabazara çevirmişdi.

Prezident İlham Əliyev 2020-ci il dekabrın 1-də xalqa müraciətində Ermənistanın uzun illər işğalda saxladığı torpaqlarımızda vəhşiliklər törətməsindən bəhs edərək demişdir: "Orada on minlərlə hektarda taxıl əkilib, xüsusilə Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan rayonlarında. Mənə verilən məlumata görə, Ermənistan işğal edilmiş torpaqlarda ildə 90 min ton taxıl yığırdı. Ermənistanın işğal edilmiş bu torpaqlarla birlikdə ümumi taxıl istehsalı 190 min ton olub. Onun yarısını bizim torpaqlarımızdan götürürdü. Bu, torpaqlarımızın qanunsuz istismarıdır… İndi öz ərzaq təhlükəsizliyini necə təmin edəcəklər? Orada böyük üzüm bağları mövcud idi. Mən Ağdam, Füzuli, Cəbrayıl rayonlarına gedərkən yolboyu görmüşdüm ki, bir çox üzüm bağlarımız dağıdılıb, orada köhnə şpalerlər qalıb. Amma bir çox yerlərdə üzüm bağları saxlanılıb. Ondan istifadə edirdi, bizim suyumuzdan istifadə edirdi, elektrik enerjisi istehsal edirdi... Laçın rayonunda bizim böyük meşə sahələrimiz var - ərazinin 22 min hektarı meşə sahəsidir. Bu da bizim böyük sərvətimizdir. Kəlbəcər rayonunda 24 min hektar meşə sahəsi vardır. Zəngilan və Qubadlı rayonlarında 12 min hektar və eyni zamanda işğaldan azad edilmiş Hadrut rayonunda və Xocavənd rayonunun bir hissəsində böyük meşə sahələri vardır. Meşələr isə planetimizin ağciyəridir. Mənfur, vəhşi düşmən bizim meşələrimizi 30 il ərzində qırıb, talayıb və son müddət ərzində yandırıb".

Ermənistan bu gün də öz ərazisində təbiətə böyük zərbə vurmaqda davam edir. Hazırda Azərbaycanla sərhədə yaxın 20-dən çox bölgəsində əlvan metallar çıxarılır. Bu işlərə də əsasən beynəlxalq investorlar cəlb olunur. Bununla da rəsmi İrəvan Qafqazın ekologiyasına ciddi zərbələr vurur, çayları zəhərli tullantılarla çirkləndirir. Ermənistan bu cinayətkar hərəkətlərini dayandırmalı və üzərinə götürdüyü beynəlxalq öhdəliklərə əməl etməlidir. Beynəlxalq təşkilatlar da seyrçi mövqe tutmamalı, Ermənistana ekoloji terroru dayandırmaq üçün müxtəlif vasitələrlə təzyiq göstərməlidirlər.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 6 aprel (№66).- S.7.